**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№315/6** **11 dekabr 2019-cu il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasına**
**"Fəxri üzv" qəbul edilməsi barədə**

Auditorlar Palatası Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 nömrəli "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə" qərarına uyğun olaraq Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan şəxslər barədə Palatanın icraçı direktoru S.Gülməmmədov tərəfindən hazırlanmış xidməti məktubu müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan Gürcüstan Mühasibat uçotu, hesabatlılıq və auditə nəzarət xidmətinin rəhbəri Yuri Dolidzeyə Palatanın "Fəxri üzv" statusu verilsin.
2. Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 1-ci bəndi ilə əlaqədar təşkilati işləri həyata keçirsin.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin və "Fəxri üzv" barədə məlumatın Palatanın internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**